**"Azərbaycan Sənaye Sığorta" ASC**

**«Razılaşdırılıb»:**

Azərbaycan Respublikası
Mərkəzi Bankının Baş direktoru

__________ Vüsal Qurbanov

«28» August 2026-cı il

**«Təsdiq edirəm»:**

"Azərbaycan Sənaye Sığorta"
ASC-nin İdarə Heyətinin sədri

__________ İlkin Mirzəyev

«25» August 2026-cı il

# İstehlak krediti müqavilələri üzrə borcalanın əmək müqaviləsinə xitam verilməsi halından sığortası Qaydası

**Bakı - 2026**

## 1. Ümumi müddəalar

1.1. "İstehlak krediti müqavilələri üzrə borcalanın əmək müqaviləsinə xitam verilməsi halından sığortası Qaydası" (bundan sonra – Qayda) Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 915-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və istehlak krediti müqavilələri üzrə borcalanın əmək müqaviləsinə xitam verilməsi halından könüllü sığortası üzrə fiziki şəxslərə təqdim edilən sığorta növünün qayda və şərtlərini müəyyən edir.

1.2. Sığorta müqaviləsindən irəli gələn və bu Qaydada nəzərdə tutulmayan hallar Mülki Məcəllə ilə tənzimlənir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **aylıq ödəniş** – istehlak krediti müqaviləsində qalıq borc məbləğinin hər ay bərabər hissələrlə ödənişi (annuitet ödənişlər). Bu aylıq ödənişə sığorta hadisəsinin baş verdiyi tarixədək ödənilməli olan, lakin ödənilməmiş əsas borc qalığı və faiz məbləği, habelə gecikdirilmə faizləri, dəbbə pulu və digər haqlar daxil edilmir;

2.1.2. **borcalan** – sığorta müqaviləsi üzrə həm sığortalı, həm də sığorta olunan qismində çıxış edən, eyni zamanda istehlak krediti müqaviləsi üzrə borc alan fiziki şəxs;

2.1.3. **borcverən** – istehlak krediti müqaviləsi üzrə borcverən, eyni zamanda sığorta müqaviləsi üzrə ona qaytarılmalı olan borcun miqdarına münasibətdə faydalanan şəxs qismində çıxış edən hüquqi şəxs;

2.1.4. **əmək müqaviləsi** – işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilə (müqavilələr);

2.1.5. **fasiləsiz iş stajı** – işçinin əvvəlki iş yerindən ayrılması ilə yeni işə başlaması arasında keçən müddətin 1 (bir) təqvim ayından artıq olmadığı halda, yaranan iş stajıdır;

2.1.6. **faydalanan şəxs** – sığorta müqaviləsinə uyğun olaraq, sığorta ödənişi verilməli olan şəxs;

2.1.7. **istehlak krediti** – sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən annuitet ödənişli kredit. Bu Qaydanın məqsədləri üçün Mülki Məcəllənin 746.2-ci maddəsində nəzərdə tutulmuş kreditlər, habelə avtomobil nəqliyyatı vasitəsinin əldə edilməsi məqsədilə fiziki şəxslərə verilən və təminat predmeti həmin avtomobil nəqliyyatı vasitəsi olan kreditlər, kredit xətləri, həmçinin təhsil tələbə krediti istehlak kreditinə aid edilmir;

2.1.8. **istehlak krediti müqaviləsi** – istehlak krediti üzrə borcverənin pula mülkiyyət hüququnu müqavilədə göstərilən məbləğdə və şərtlərlə borcalana verməyi, borcalanın isə həmin pulu müqavilədə nəzərdə tutulmuş şərtlərlə və müddətdə faizlərin və (və ya) müqavilədə göstərilən digər ödənişlərin ödənilməsi şərti ilə borcverənə qaytarmağı öhdəsinə götürdüyü və bu Qayda əsasında sığorta müqaviləsinin bağlanmasını şərtləndirən razılaşma;

2.1.9. **işçi** – işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxs;

2.1.10. **işəgötürən** – tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik

mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə fiziki şəxs;

2.1.11. **qalıq borc məbləği** – istehlak krediti müqaviləsi üzrə borcalanın sığorta hadisəsinin baş verdiyi tarixdən sonra ödəniş qrafikinə uyğun olaraq, ödəməli olduğu məbləğ (əsas borc və hesablanmış faizlər). Bu məbləğə sığorta hadisəsinin baş verdiyi tarixədək ödənilməli olan, lakin ödənilməmiş əsas borc qalığı və faiz məbləği, habelə gecikdirilmə faizləri, dəbbə pulu və digər haqlar daxil edilmir;

2.1.12. **sığortaçı** – Qanuna əsasən sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda, sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

2.1.13. **sığorta hadisəsi** – sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

2.1.14. **sığorta haqqı** – istehlak krediti müqaviləsi üzrə borcalanın əmək müqaviləsinə xitam verilməsi riskinin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

2.1.15. **sığorta məbləği** – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin bu Qaydanın 14.7-ci və 18.8-ci bəndlərinə müvafiq qaydada hesablanmış və sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

2.1.16. **sığorta müqaviləsi** – sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində əmək müqaviləsinə xitam verilməsi ilə bağlı razılaşdırılmış pul məbləğinin bu Qaydaya uyğun ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

2.1.17.**sığorta olunan** – əmək müqaviləsinə xitam verilməsi hallarından sığortalanmış istehlak krediti müqaviləsi üzrə borc alan fiziki şəxs;

2.1.18. **sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə sığorta müqaviləsinə uyğun olaraq, sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

2.1.19. **sığorta riski** – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı;

2.1.20. **sığorta şəhadətnaməsi** – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya verilən sənəd;

2.1.21. **sığorta tarifi** – sığorta haqqının hesablanması üçün sığorta məbləğinə tətbiq edilən, faizlə ifadə olunan dərəcə;

2.1.22. **sığortalı** – sığorta haqqı ödəyərək əmək müqaviləsinə xitam verilməsi halından sığorta etdirən, sığorta müqaviləsinin tərəfi olan istehlak krediti müqaviləsi üzrə borc alan fiziki şəxsdir. Sığortalı qismində Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (bundan sonra – Əmək Məcəlləsi) uyğun olaraq, əmək müqaviləsinin tərəfi olan, ümumi əmək stajı 12 (on iki) aydan və xüsusilə son iş yerində 6 (altı) aydan az olmayan əmək stajına malik işçilər çıxış edə bilər. Ümumi 12 (on iki) aylıq staj tələbi nəzərə alınmaqla sığortalı fasiləsiz iş stajına malik olduqda son iş yerlərində ümumi 6 (altı) ay, sonuncu iş yerində isə azı 3 (üç) ay əmək stajına malik olmalıdır.

2.2. Bu Qaydanın məqsədləri üçün sığortalı anlayışı sığorta qanunvericiliyində nəzərdə tutulmuş sığorta olunanı da əhatə edir.

2.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 3. Sığortanın sinifləri

Bu Qaydaya əsasən təqdim olunan sığorta təminatı sığorta obyektinə görə əmlak sığortasına aid olan kreditlərin sığortası sinfinə aiddir.

## 4. Sığorta obyekti

Bu Qaydaya əsasən borcalanın əmək müqaviləsinə xitam verilməsi nəticəsində borcverən qarşısında yaranan öhdəliklərinin əvəzinin ödənilməsi üzrə əmlak mənafeləri sığortanın obyekti hesab olunur.

## 5. Sığorta predmeti

Bu Qaydaya görə sığorta predmeti borcalanın əmək müqaviləsinə xitam verilməsi halı hesab olunur.

## 6. Sığorta riskləri və sığorta hadisəsi

6.1. Bu Qaydaya əsasən sığortaçı sığortalının əmək müqaviləsinə xitam verilməsi riskinə sığorta təminatı verir.

6.2. Aşağıdakılar nəticəsində bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş riskin baş verməsi sığorta hadisəsi hesab olunur:

6.2.1. Əmək Məcəlləsinin 70-ci maddəsinin "a" bəndinə əsasən müəssisənin ləğv edilməsi və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi ilə əlaqədar sığortalının əmək müqaviləsinə xitam verilməsi;

6.2.2. Əmək Məcəlləsinin 70-ci maddəsinin "b" bəndinə əsasən işçilərin say və ya ştatlarının ixtisar edilməsi ilə əlaqədar sığortalının əmək müqaviləsinə xitam verilməsi;

6.2.3. Əmək Məcəlləsinin 70-ci maddəsinin "c" bəndinə əsasən peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərarın qəbul edilməsi ilə əlaqədar sığortalının əmək müqaviləsinə xitam verilməsi;

6.2.4. Əmək Məcəlləsinin 68-ci maddəsinin "c" bəndinə əsasən əmək şəraitinin şərtlərinin dəyişdirilməsi ilə əlaqədar sığortalının əmək müqaviləsinə xitam verilməsi;

6.2.5. Əmək Məcəlləsinin 68-ci maddəsinin "ç" bəndinə əsasən müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar (Əmək Məcəlləsinin 63-cü maddəsinin ikinci hissəsində göstərilən işçilərə münasibətdə) sığortalının əmək müqaviləsinə xitam verilməsi;

6.2.6. Bu Qaydanın 6.3.2-ci yarımbəndi nəzərə alınmaqla, Əmək Məcəlləsinin 69-cu maddəsinə əsasən işçinin qabaqcadan işəgötürəni yazılı (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) ərizəsi ilə xəbərdar etməsi ilə sığortalının əmək müqaviləsinə xitam verilməsi;

6.2.7. Əmək Məcəlləsinin 68-ci maddəsinin "b" bəndinə və ya 73-cü maddəsinə əsasən sığortalının əmək müqaviləsinə əmək müqaviləsinin müddətinin bitməsinə görə xitam verilməsi;

6.2.8. Bu Qaydanın 6.3-cü bəndində göstərilməyən və sığorta müqaviləsində təsbit edilmiş digər əsaslarla əmək müqaviləsinə xitam verilməsi.

6.3. Aşağıdakılar nəticəsində bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş riskin baş verməsi sığorta hadisəsi hesab olunmur:

6.3.1. Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinə əsasən sığortalının əmək müqaviləsinə işçinin öz əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədiyinə, yaxud Əmək Məcəlləsinin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduğuna görə xitam verilməsi;

6.3.2. Əmək Məcəlləsinin 69-cu maddəsinin 3-cü hissəsinə əsasən sığortalının əmək müqaviləsinə işçinin yaşa və ya əlilliyə görə əmək pensiyasına çıxdığına görə öz ərizəsi əsasında xitam verilməsi;

6.3.3. Əmək Məcəlləsinin 70-ci maddəsinin "e" bəndinə əsasən sığortalının əmək müqaviləsinə sığortalının çalışmanın yaş həddinə çatmasına görə xitam verilməsi.

## 7. Sığorta müqaviləsinin bağlanması

7.1. Sığorta müqaviləsi sığortalı tərəfindən doldurulan sığortalanma haqqında ərizə əsasında bağlanılır.

7.2. Bu Qaydanın 7.1-ci bəndində nəzərdə tutulan ərizə forması sığortaçı tərəfindən müəyyən edilir. Ərizənin mətni aydın və oxunaqlı olmalı, ərizədə əks olunan suallar dəqiq və vahid məna ifadə edərək sual əsasında verilən düzgün və aydın cavablarla sığorta riskini birbaşa qiymətləndirməyə imkan verəcək şəkildə tərtib olunur.

7.3. Sığorta müqaviləsi kağız daşıyıcıda və ya elektron sənəd formasında olmaqla aşağıdakı formalarda bağlanır:

7.3.1. tərəflərin bu Qayda əsasında tərtib olunan sığorta müqaviləsinin qarşılıqlı imzalaması yolu ilə;

7.3.2. sığortalının bu Qayda ilə razı olmasını təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə.

7.4. Sığorta müqaviləsi bu Qaydanın 7.3.1-ci yarımbəndində nəzərdə tutulmuş qaydada bağlandığı halda da sığortaçı sığortalıya sığorta şəhadətnaməsi verməlidir.

7.5. Bu Qaydaya uyğun olaraq təqdim edilən sığorta şəhadətnaməsində sığorta riskləri konkret olaraq sadalanmalıdır.

7.6. Sığorta müqaviləsi bağlanarkən sığortaçı sığortalıya hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş, sığorta müqaviləsinin bağlanması və sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tənzimlənmə qaydasını, sığorta təminatına daxil olan riskləri, sığorta hadisəsi hesab edilməyən hadisələri, sığorta təminatına dair məhdudiyyətləri, gözləmə müddətini, ümumi sığorta məbləğinin istehlak krediti üzrə 6 (altı) aylıq ödəniş məbləği ilə məhdudlaşdırılmasını, sığorta hadisəsi hesab edilə bilən halın baş verdiyi zaman necə hərəkət etməyin lazım olduğunu, sığorta ödənişinin verilməsi üçün tələb edilən sənədlərə və sığortaçının sığorta ödənişindən imtina etməsinin qanuni əsaslarına dair məlumatları, həmçinin özünün və nümayəndəsinin əlaqə məlumatlarını əks etdirən yaddaş vərəqinin elektron formada və ya kağız daşıyıcıda

təqdim etməli, habelə sığortalı istədikdə həmin məlumatların izahını aydın və anlaşılan formada ona verməlidir.

7.7. Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onun məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir.

## 8. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklərin edilməsi

8.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində ona sığortalının vəziyyətini pisləşdirməyən əlavələr və dəyişikliklər edilə bilər. Bu tələbə uyğun olmayan əlavələr və dəyişikliklər etibarsızdır.

8.2. Sığortaçı Mülki Məcəllənin 912.1-ci maddəsinə uyğun olaraq, sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta riskinin artmasına səbəb olan dəyişikliklər barədə məlumat aldıqda sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsi, o cümlədən sığorta haqqının artırılması tələbi ilə çıxış edə bilər, bu şərtlə ki, sığorta müqaviləsinə dəyişikliklər barədə sığortalıdan razılığın alınması üçün azı 15 (on beş) günlük müddəti əhatə edən möhlətin verilməsini nəzərdə tutan rəsmi yazılı bildiriş sığortaçı tərəfindən sığortalıya təqdim edilmiş olsun.

8.3. Sığortalı bu Qaydanın 8.2-ci bəndində göstərilən tələblə razılaşmadıqda və ya həmin tələblə bağlı sığortaçıya cavab vermədikdə sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsini tələb edə bilər. Bu halda müqaviləyə xitam verilməsi ilə bağlı məsələlər bu Qaydanın 12-ci və 13-cü hissələrinə uyğun olaraq tənzimlənir.

## 9. Sığorta təminatının müddəti və sığorta ərazisi

9.1. Sığorta təminatının müddəti istehlak kreditinin qalan müddətinə bərabər olmaqla sığorta müqaviləsi ilə müəyyən edilir. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta təminatının müddəti sığorta haqqının və ya onun ilk hissəsinin ödənildiyi andan başlayır.

9.2. Sığorta ərazisi sığorta müqaviləsi ilə müəyyən olunur.

## 10. Sığorta müqaviləsinin tərəflərinin hüquq və vəzifələri

10.1. Sığortalının hüquqları:

10.1.1. sığorta müqaviləsi bağlanarkən sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;

10.1.2. sığorta şəhadətnaməsi itdikdə və ya məhv olduqda sığortaçıdan onun dublikatını almaq;

10.1.3. sığorta müqaviləsinin şərtləri və bu Qayda barədə sığortaçıdan izahatlar almaq;

10.1.4. sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsi təklifi ilə çıxış etmək;

10.1.5. sığorta müqaviləsi və ya şəhadətnaməsi elektron sənəd formasında bağlandığı halda, sığortaçıdan sığorta müqaviləsinə və (və ya) sığorta şəhadətnaməsinə, o cümlədən bu Qaydaya çıxış imkanının təmin edilməsini tələb etmək;

10.1.6. sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etmək və sığorta haqlarının bu Qaydaya uyğun olaraq qaytarılmasını tələb etmək;

10.1.7. qanunvericilikdə və bu Qaydada nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

10.2. Sığortalının vəzifələri:

10.2.1. sığortalanma haqqında ərizədə qoyulan suallara doğru cavablar vermək;

10.2.2. sığorta haqqını sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə və miqdarda ödəmək;

10.2.3. sığorta hadisəsinin baş verməsi barədə hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə hər hansı vasitə ilə xəbər vermək. Bu vəzifə sığortalının nümayəndəsi və ya faydalanan şəxs tərəfindən də yerinə yetirildikdə qənaətbəxş hesab edilir;

10.2.4. sığortaçıya faydalanan şəxs barədə düzgün məlumat vermək;

10.2.5. sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onun məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat vermək;

10.2.6. istehlak krediti müqaviləsi üzrə öz öhdəliklərini tam icra etməsi və bu səbəbdən, istehlak krediti müqaviləsinə xitam verilməsi ilə əlaqədar sığortaçını məlumatlandırmaq;

10.2.7. qanunvericilikdə və bu Qaydada nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

10.3. Sığortaçının hüquqları:

10.3.1. sığortalının verdiyi məlumatların düzgünlüyünü yoxlamaq;

10.3.2. sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etmək;

10.3.3. qanunvericilikdə və bu Qaydada nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

10.4. Sığortaçının vəzifələri:

10.4.1. sığortalıya bu Qaydanı və sığorta şəhadətnaməsini vermək;

10.4.2. sığorta hadisəsi baş verdikdə bu Qaydanın 17-ci hissəsində nəzərdə tutulmuş sənədlərdən sonuncusunu aldığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq sığorta ödənişini vermək, yaxud sığortalıya və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etmək;

10.4.3. sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına (qurumlarına) belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu göndərmək;

10.4.4. sığorta hadisəsi barədə məlumat aldıqdan sonra bu Qaydanın 17.1.5-ci və 17.1.6-cı yarımbəndlərində göstərilən sənədlərin alınması üçün borcverənə yazılı sorğu göndərmək;

10.4.5. qanunvericilikdə və bu Qaydada nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

## 11. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi

11.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

11.1.1. sığortalı öldükdə;

11.1.2. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;

11.1.3. sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

11.1.4. bu Qaydanın 11.3-cü bəndində nəzərdə tutulmuş halda;

11.1.5. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

11.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, sığortalının hüquq və vəzifələrini onun qanuni nümayəndəsi həyata keçirir.

11.3. İstehlak krediti müqaviləsinə xitam verilməsi ilə əlaqədar sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış edildikdə sığorta müqaviləsi dərhal xitam verilmiş hesab edilir. Bu halda müqaviləyə xitam verilməsi ilə bağlı məsələlər bu Qaydanın 12-ci və 13-cü hissələrinə uyğun olaraq tənzimlənir.

## 12. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə

12.1. Bu Qaydanın 11.1-ci bəndində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda bu Qaydanın 12.2-ci və 12.3-cü bəndləri nəzərə alınmaqla müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə yazılı və ya elektron qaydada xəbərdar etməlidir.

12.2. Sığorta vasitəçisinin iştirakı ilə bağlanılan sığorta müqaviləsi üzrə sığorta vasitəçisi bu Qaydanın 11.3-cü bəndində qeyd edilmiş halla bağlı məlumatlı olduğu təqdirdə, bu barədə sığortaçıya yazılı və ya elektron qaydada məlumat verməlidir.

12.3. Sığorta müqaviləsinə bu Qaydanın 11.1.5-ci yarımbəndinə uyğun olaraq, sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə azı 30 (otuz) gün əvvəl (sığorta müqaviləsi 5 (beş) ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, 3 (üç) aydan az müddətə bağlanmış olduqda isə 5 (beş) iş günü əvvəl) tələbinin əsaslandırıldığı yazılı bildiriş göndərməlidir. Belə bildiriş sığorta müqaviləsinin xitam tarixini özündə əks etdirməklə, sığortalının və ya sığortaçının sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə sığorta müqaviləsi bildirişin çatmasının təsdiq olunması şərti ilə, bildirişdə göstərilən tarixdən xitam edilmiş sayılır.

## 13. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

13.1. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə sığortaçı həmin müqavilə üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə

yetirməməsi ilə bağlıdırsa, sığortaçı ödənilmiş sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır.

13.2. Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, ödənilmiş sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır. Əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

13.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

13.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq, bu Qaydanın 13.1-ci və 13.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

13.5. Sığorta müqaviləsi bu Qaydanın 11.2-ci bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydanın 13.3-cü və 13.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

13.6. Sığorta müqaviləsinə bu Qaydanın 11.1.1-ci yarımbəndində müəyyən edilmiş halda xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydanın 13.3-cü və 13.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının vərəsəsinə qaytarır.

13.7. Sığorta müqaviləsi üzrə sığortaçıya ödənilən sığorta haqlarının ən çoxu 30 (otuz) faiz hissəsi sığorta vasitəçiliyi xidmətinə görə verilən komisyon muzdlar da daxil olmaqla işlərin aparılması xərclərinə sərf edilə bilər.

## 14. Sığorta haqqı və sığorta məbləği

14.1. Sığorta haqqının məbləği sığorta müqaviləsi ilə müəyyən edilir.

14.2. Sığorta müqaviləsində sığorta haqqının birdəfəlik və ya hissə-hissə ödənilməsi razılaşdırıla bilər.

14.3. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün bu Qaydanın 14.4-cü bəndinin tələbi nəzərə alınmaqla yazılı surətdə 15 (on beş) günədək müddət müəyyən edə bilər.

14.4. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 (bir) aydan gec olmayaraq ödənilməlidir.

14.5. Elektron sənəd formasında olan sığorta müqaviləsi üzrə sığorta haqqının ödənilməsi sığortalının bu Qayda və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin Qayda və şərtlərlə razılığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını təsdiqləyir.

14.6. Sığortaçının sığorta haqqının hesablanması üçün tətbiq etdiyi sığorta tarifləri və onların iqtisadi əsaslandırılması qəbul etdiyi sığorta risklərinə adekvat olmalı və sığortaçının maliyyə dayanıqlığına mənfi təsir göstərməməlidir.

14.7. Ümumi sığorta məbləği istehlak krediti müqaviləsi üzrə ödəniş qrafikinə uyğun olaraq, istehlak kreditinin 6 (altı) aylıq ödəniş məbləğindən artıq ola bilməz.

## 15. Sığorta hadisəsi barədə məlumatlandırma

Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya digər faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə hər hansı vasitə ilə xəbər verməlidir.

## 16. Gözləmə müddəti

16.1. Bu Qayda əsasında bağlanmış sığorta müqavilələri üzrə sığorta hadisəsi sığorta təminatının müddətinin ilk 30 (otuz) günü ərzində baş verdikdə 30 (otuz) gün şərtsiz gözləmə müddəti tətbiq edilir. Bu halda, sığorta hadisəsi nəticəsində gözləmə müddəti ərzində yaranmış öhdəliklərin əvəzinin ödənilməsi sığortalının üzərində qalır və sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən etibarən keçən gözləmə müddəti ərzində yaranmış öhdəliklərə şamil edilmir.

16.2. Sığorta hadisəsi sığorta təminatının müddətinin ilk 30 (otuz) günü başa çatdıqdan sonra baş verdiyi halda gözləmə müddəti tətbiq edilmir.

## 17. Sığorta ödənişinin verilməsinin əsasları

17.1. Sığorta ödənişi aşağıdakı sənədlərin hər birinin mövcud olduğu halda həyata keçirilir:

17.1.1. sığorta şəhadətnaməsi;

17.1.2. sığorta ödənişinin alınması barədə faydalanan şəxsin (şəxslərin) sığorta tələbi;

17.1.3. sığortalının şəxsiyyətini təsdiq edən sənədin surəti;

17.1.4. istehlak kreditinin ödənilməsi üçün hesabın bank rekvizitləri;

17.1.5. istehlak krediti müqaviləsinin borcverən tərəfindən təsdiqlənmiş surəti;

17.1.6. istehlak krediti müqaviləsi üzrə borcverənin təsdiqlədiyi ödəniş qrafikinin surəti və istehlak krediti üzrə borcverənin təsdiqlədiyi qalıq borc məbləğinə dair arayış (gözləmə müddəti tətbiq edildiyi halda, həmin müddətin sonunda tərtib edilməlidir);

17.1.7. bu Qaydanın 6-cı hissəsinə uyğun olaraq, sığorta hadisəsinin müəyyən edilməsi üçün əmək müqaviləsinə xitam verilməsi əsaslarını və xitam verilmə tarixini əks etdirən sənədlər;

17.1.8. sığortalının qüvvədə olan əmək müqaviləsinin mövcud olmadığını və sığortalıya sığorta müqaviləsi bağlandıqdan sonra yaşa və əlilliyə görə əmək pensiyası təyin edilmədiyini təsdiq edən sənəd.

17.2. Dövri sığorta ödənişi həyata keçirilən zaman bu Qaydanın 17.1.8-ci yarımbəndində qeyd olunan sənədlər sığorta ödənişinin həyata keçirildiyi hər bir dövr üçün ayrılıqda təqdim edilməlidir.

17.3. Sığorta hadisəsi baş verdikdən sonra sığortaçının sığorta ödənişi vermək öhdəliyinin yarandığı dövr üçün əgər sığortalı tərəfindən borcverənə istehlak krediti

müqaviləsi üzrə hər hansı ödəniş edilmişdirsə, həmin ödənişlər həcmindəki sığorta ödənişi birbaşa olaraq sığortalının özünə ödənilir. Bu halda bu Qaydanın 17.1-ci bəndində müəyyən edilmiş sənədlərlə yanaşı aşağıda göstərilən sənədlər təqdim edilməlidir:

17.3.1. istehlak krediti ödənişinin qəbzi;

17.3.2. sığortalının bank rekvizitləri.

## 18. Sığorta ödənişinin verilməsi ilə bağlı tələblər

18.1. Bu Qaydanın 14.7-ci və 18.8-ci bəndlərinin tələbləri nəzərə alınmaqla, bu Qaydanın 6.2-ci bəndində müəyyən edilmiş sığorta hadisəsi nəticəsində sığortalının əmək müqaviləsinə xitam verildikdə sığorta ödənişi istehlak kreditinin ilkin ödəniş qrafikinə uyğun dövrilikdə ödənilir. İlk ayın sığorta ödənişi sığorta hadisəsinin baş verdiyi tarixdən istehlak kreditinin qrafik üzrə ödəniş tarixinə qədər olan müddətdə hesablanmış məbləği ehtiva edir. Sığorta hadisəsi sığorta təminatının ilk 30 (otuz) günü ərzində baş verdikdə ilk ay üzrə sığorta ödənişi gözləmə müddətinin başa çatdığı tarixdən istehlak kreditinin qrafik üzrə ödəniş tarixinədək olan müddət üçün hesablanmış məbləği ehtiva edir.

18.2. Aylıq sığorta ödənişlərinin ümumi məbləği sığorta müqaviləsinə əsasən nəzərdə tutulan sığorta məbləğini aşa bilməz.

18.3. Borcalanın sığorta hadisəsi baş verdiyi tarixə qədər, eləcə də gözləmə müddəti tətbiq edildiyi halda həmin müddət ərzində istehlak krediti müqaviləsi üzrə yaranmış öhdəlikləri sığorta ödənişi məbləğinə daxil edilmir.

18.4. Sığortalı sığorta hadisəsi baş verdikdən sonra yeni əmək müqaviləsi bağladığı təqdirdə, sığorta ödənişlərinin verilməsi dayandırılır.

18.5. Sığorta ödənişi istehlak krediti üzrə təsdiqlənmiş ilkin ödəniş qrafikində qeyd edilən aylıq ödəniş məbləğlərində, lakin aylıq sığorta məbləğindən çox olmamaq şərti ilə həyata keçirilir. Əgər borcalanın istehlak kreditinin ödəniş qrafikində dəyişiklik edilərsə və bu dəyişiklik nəticəsində aylıq ödəniş məbləğləri artarsa, sığorta ödənişi ilkin qrafik üzrə müəyyən edilmiş məbləğ əsasında həyata keçirilir. İstehlak krediti üzrə aylıq ödəniş məbləği sığorta müqaviləsi bağlanan zaman müəyyən edilmiş ödəniş məbləğinin 10%-dən çox azaldılarsa, sığorta müqaviləsinə dəyişiklik edilməlidir (sığorta məbləği və sığorta haqqı ilə bağlı).

Sığorta ödənişi sığortalının hər hansı əmək müqaviləsi mövcud olmadığı halda həyata keçirilir.

Bu Qaydanın 6.2-ci bəndində müəyyən edilmiş sığorta hadisələri nəticəsində sığorta ödənişi alan sığortalıya yaşa və əlilliyə görə əmək pensiyası təyin edildikdə sığorta ödənişləri həyata keçirilmir.

Bir ay üzrə sığorta ödənişinin məbləği sığortalının istehlak kreditinin rəsmiləşdiyi günə olan əməkhaqqısının 70%-dən çox ola bilməz.

## 19. Sığorta ödənişinin verilməsi və ya ödənişdən imtina edilməsi müddəti

19.1. Bu Qaydanın 17-ci hissəsində göstərilən sənədlərdən sonuncusunun sığortaçıya daxil olduğu tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq sığortaçı sığorta ödənişini verməli, yaxud sığortalıya və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir.

19.2. Sığortaçı sığorta ödənişini bu Qaydanın 19.1-ci bəndi ilə müəyyən olunmuş müddətdə həyata keçirmədikdə hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.

## 20. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları

20.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

20.1.1. baş vermiş hadisənin bu Qaydanın 6.3-cü bəndinə əsasən sığorta hadisəsi hesab edilmədikdə;

20.1.2. sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 (on beş) gün sonra, bu Qaydanın 14.3-cü bəndində nəzərdə tutulmuş halda isə sığortaçı müəyyən etdiyi müddətin başa çatmasından 3 (üç) gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

20.1.3. bu Qaydanın 20.2-ci bəndi nəzərə alınmaqla sığorta predmeti və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçı sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda.

20.2. Aşağıdakı hallarda sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi və ya tələb olunan məlumatın verilməməsi faktına əsaslana bilməz:

20.2.1. bu Qaydanın 20.1.3-cü yarımbəndində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda;

20.2.2. sığorta müqaviləsi sığortalanma haqqında ərizədə tələb olunan sorğulara sığortalının cavab verməməsinə baxmayaraq, sığorta müqaviləsi bağlanmış olduqda və ya ərizədə sığortalının verdiyi cavaba uyğun olaraq təminat verilmiş sığorta riski ilə hadisə arasında birbaşa səbəb əlaqəsi olmadıqda.

## 21. Mübahisələrin həlli qaydası

21.1. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll olunur.

21.2. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələrin həllində tərəflər arasında qarşılıqlı razılığın əldə olunması mümkün olmadıqda mübahisələr qanunvericilikdə müəyyən edilmiş qaydada həll edilir.

21.3. Sığorta müqaviləsi üzrə hüquqlarının sığortaçı tərəfindən pozulduğunu hesab edən sığortalı, faydalanan şəxs, qanuni nümayəndə və ya sığortalının vərəsələri Azərbaycan Respublikasının Mərkəzi Bankına şikayət ərizəsi ilə müraciət edə bilərlər.

İstehlak krediti müqavilələri üzrə borcalanın əmək müqaviləsinə xitam verilməsi halından sığortası üzrə sığorta tarifləri və onun iqtisadi əsaslandırılması

Sığorta tarifinin hesablanması üçün zəruri olan məlumatlar:

- n =100 – müqavilələrin nəzərdə tutulan sayı
- q =0.046 – sığorta hadisəsinin baş vermə ehtimalı

- S=5459 – bir sığorta müqaviləsi üzrə sığorta məbləğinin orta qiyməti
- $S_b$ =708 – sığorta hadisəsinin baş verməsi zamanı bir sığorta müqaviləsi üzrə orta sığorta ödənişi
- γ – sığorta hadisələri üzrə ödənişlərin verilməsi üçün yığılmış sığorta haqlarının yetərli olmasının tələb olunan ehtimalına zəmanət
- α(γ) – təhlükəsizlik zəmanəti, γ-dan, asılı olan əmsal. Bu əmsalın qiymətini cədvəldən götürə bilərik:

| γ | 0.84 | 0.9 | 0.95 | 0.98 | 0.9986 |
|---|---|---|---|---|---|
| α(γ) | 1.0 | 1.3 | 1.645 | 2.0 | 3.0 |

Netto-dərəcə $T_n$ iki hissədən ibarətdir - əsas hissə $T_ə$ və risk əlavəsi $T_r$:

$$T_n = T_ə + T_r$$

Netto-dərəcənin əsas hissəsi $T_ə$, sığorta hadisəsinin baş vermə ehtimalı q, orta sığorta məbləği S və orta sığorta ödənişi $S_b$ –dan asılı olan sığortaçının orta ödənişlərinə uyğundur. Netto-dərəcənin əsas hissəsi aşağıdakı düsturla hesablanır:

$$T_ə = 100 \times \frac{S_b}{S} \times q = 0.6$$

Risk əlavəsi $T_r$ sığorta hadisələrinin sayının orta qiymətindən çox olması ehtimalını nəzərə almaq üçün daxil edilir. Risk əlavəsi $T_r$ aşağıdakı düsturla hesablanır:

$$T_r = 1.2 \times T_ə \times \alpha(\gamma) \times \sqrt{\frac{1-q}{nq}} = 0.32$$

Belə ki,

$$T_n = T_ə + T_r = 0.92$$

Brutto-dərəcə aşağıdakı düsturla hesablanır:

$$T_b = \frac{T_n \times 100}{100 - f} = 1.53$$

burda f (%) – yükləmənin ümumi tarif dərəcəsində payıdır.

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 60%, yüklənmə ( f ) – 40%. O cümlədən işlərin aparılması xərcləri -25%, tarif mənfəəti- 15%. Tarif strukturunda komissiya xərcləri maksimum 40% təşkil edə bilər.

Hesablamalar üçün təhlükəsizlik zəmanəti 0.84 səviyyəsində götürülüb, buna uyğun olaraq α(γ)=1

Beləlikdə baza sığorta tarifi 1.52% təşkil edir. Sığorta riskinin xüsusiyyətlərindən asılı olaraq baza tarifinə yüksəldici və ya azaldıcı əmsallar tətbiq edilə bilər.Əmsallar tətbiq edilərkən aşağıdakı risk amilləri nəzərə alına bilər:

- sığortalının məşğul olduğu iqtisadi fəaliyyət sahəsi;
- işəgötürənin fəaliyyət sahəsi və maliyyə dayanıqlığı;
- əmək müqaviləsinin müddətli və ya müddətsiz olması;
- sığortalının ümumi və son iş yeri üzrə əmək stajı;
- kreditin müddəti;
- aylıq kredit ödənişinin sığortalının əməkhaqqına nisbəti;
- sığorta təminatının müddəti;
- digər amillər.

Bu risk amillərindən asılı olaraq yekun tarif dərəcəsi 0.15%-15% aralığında dəyişə bilər.

Bu yanaşma əsasında müddətlər üzrə ilkin göstəricilər aşağıdakı kimi formalaşır:

| Müddəti | Müddət əmsalı |
|---|---|
| 12 ayadək | 1 |
| 11 ayadək | 0.95 |
| 10 ayadək | 0.90 |
| 9 ayadək | 0.85 |
| 8 ayadək | 0.80 |
| 7 ayadək | 0.75 |
| 6 ayadək | 0.70 |
| 5 ayadək | 0.60 |
| 4 ayadək | 0.50 |
| 3 ayadək | 0.40 |
| 2 ayadək | 0.35 |
| 1 ayadək | 0.25 |

"Azərbaycan Sənaye Sığorta" ASC-nin

İdarə Heyəti aşağıdakıları təsdiq edir:

Bu kitab (14) on dörd vərəqdən ibarətdir.

Vərəqlər sayıldı

Kitab tikilib və möhürlənmişdir.